

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 148 (21.300)

31 iyul 2015-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Əlahiddə Ümumqoşun Ordunun çətin dağlıq şəraitində yerləşən hərbi hissələri yüksək döyüş qabiliyyətinə malikdirlər





Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***"Azərbaycan Respublikasının tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının coğrafi vəziyyəti bu diyarda ölkəmizin torpaqlarının, sərhədlərinin qorunması üçün xüsusi əhəmiyyət kəsb edir".***

Bu gün Əlahiddə Ümumqoşun Ordunun dağ şəraitində və yüksəkliklərdə yerləşən hissə və bölmələrində nümunəvi xidmət şəraiti yaradılmışdır. Çətin dağlıq şəraitdə yerləşən hərbi hissələrdə xidmət edən əsgərlər torpaqlarımızı etibarlı qoruyurlar. Güclü maddi-texniki təminat, yüksək xidmət şəraiti və xalq-ordu birliyi hərbi qulluqçuların döyüş əzmini daha da artırır. Bu sahədə həyata keçirilən tədbirlər Şahbuz rayonunun yüksək dağlıq şəraitində yerləşən hərbi hissələrini də əhatə etmişdir.

İyulun 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Batabat bölgəsindəki hərbi hissələrdə xidmətin təşkili və şəxsi heyətin məişət şəraiti ilə maraqlanmışdır.

Azərbaycan Respublikası müdafiə nazirinin müavini – Əlahiddə Ümumqoşun Ordunun komandanı, general-leytenant Kərəm Mustafayev Ali Məclisin Sədrinə raport vermişdir.

Ali Məclisin Sədri əsgərləri salamlamış, Azərbaycan-Ermənistan sərhədində xidməti vəzifələrini uğurla yerinə yetirdiklərinə görə onlara təşəkkür edərək demişdir: Bu gün Azərbaycan Respublikasının Prezidenti ölkəmizdə ordu quruculuğuna xüsusi diqqət yetirir. Vaxtilə bu ərazilərdə əsgərlər çox ağır şəraitdə xidməti vəzifələrini yerinə yetirirdilər. Lakin ölkəmiz inkişaf etdikcə, ordunun əsgəri-məişət şəraiti və silah-sursat təminatı da xeyli yaxşılaşdırıldı. Ucqar dağlıq ərazidə sizin üçün yaradılan xidməti şərait də ordu quruculuğu sahəsində görülən işlərin nəticəsidir. Sosial-məişət problemlərinin həll olunması və hərbi hissələr üçün yaradılan şərait qarşıya bir vəzifə qoyur. O da xidməti vəzifələri layiqincə yerinə yetirmək, vətən sərhədlərini və torpaqlarımızı etibarlı müdafiə etməkdən ibarətdir.

"Vətən o zaman vətən olur ki, o həm qorunur, həm də vətən torpağından səmərəli istifadə olunur", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, vətən torpağının qorunması, eyni zamanda torpaqlardan səmərəli istifadə olunması bu gün ölkəmizin vətəndaşlarının və ordunun üzərinə düşən vəzifələrdir. Çünki sərhədlərimiz qorunursa, insanlar da öz vəzifələrini, işlərini rahat yerinə yetirə biləcəklər, öz zəhmətləri ilə ölkəmizin inkişafına töhfə verəcəklər. Əsgərlər xidməti vəzifələrini uğurla yerinə yetirdiklərinə görə bu ərazilərdən səmərəli istifadə olunur. Xidmət olunan ərazilərdə heyvandarlar və arıçılar üçün əlverişli şərait vardır. Onlar burada rahat və təhlükəsiz şəkildə təsərrüfatları ilə məşğul olurlar. Birgə fəaliyyətin nəticəsi olaraq isə ölkəmiz abadlaşır, inkişaf edir.



Ali Məclisin Sədri şəxsi heyətin bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklərinə, xidməti uğurla, qarşılıqlı hörmət və intizam əsasında başa vuracaqlarına əminliyini bildirmişdir.

Əsgər Aydın Salmanov demişdir ki, hərbi hissədə vətənpərvər, dövlətinə, xalqına sədaqətli gənclər xidmət edirlər. Əsgərlər yüksək döyüş qabiliyyətinə və mənəvi-psixoloji hazırlığa malikdir. Şəxsi heyət istənilən döyüş tapşırığını uğurla yerinə yetirməyə qadirdir. Düşmənlə təmas xəttində xidmətin normal təşkili üçün yaradılan şərait əsgər və zabitlər tərəfindən razılıq hissi ilə qarşılanır. Onların məsuliyyətini daha da artırır. Eyni zamanda bugünkü görüş əsgərləri qürurlandırır, onları vətənin keşiyində ayıq-sayıq dayanmağa sövq edir.

Sonra Ali Məclisin Sədri əsgərlərin məişət şəraiti ilə maraqlanmışdır.

Bildirilmişdir ki, hərbi hissədəki binada idman zalı, tibb otağı, məişət guşələri, təlim sinfi, silah, ideoloji və ayrı-ayrı xidməti otaqlar və 2 əsgər yataqxanası vardır. Təlim sinfində əsgərlərə taktiki, kəşfiyyat, mühəndis, atəş, rabitə və tibbi hazırlıq, eləcə də hərbi topoqrafiya üzrə təlimlərin nəzəri əsasları öyrədilir. İdeoloji otaqda isə əsgərlərin asudə vaxtının səmərəli keçirilməsi üçün lazımi şərait yaradılmış, ordumuzun keçdiyi tarixi inkişaf yolunu əks etdirən kitablar, stendlər, qəzet və jurnal materialları qoyulmuşdur. Binada taksofon quraşdırılmışdır. Əsgərlərin vaxtlı-vaxtında qidalanmasına xüsusi diqqət yetirilir. Bunun üçün anbarda kifayət qədər ərzaq ehtiyatı yaradılmışdır.

Baxış zamanı Ali Məclisin Sədri şəxsi heyətin mövsümə uyğun olaraq qidalanmasına, onların tibbi müayinədən keçirilməsinə və şəxsi heyət arasında səhiyyə maarifi işinin aparılmasına dair tapşırıqlar vermişdir.

Sonra Ali Məclisin Sədri hərbi birləşmənin əhatə etdiyi postlarda olmuş, xidmətin təşkili ilə maraqlanmışdır.

Müşahidə məntəqəsində Azərbaycan Respublikası müdafiə nazirinin müavini – Əlahiddə Ümumqoşun Ordunun komandanı, general-leytenant Kərəm Mustafayev Ali Məclisin Sədrinə mövqelərimizin vəziyyəti və taktiki şərait haqqında məlumat vermişdir.

Qeyd olunmuşdur ki, bu gün sərhədlərdə etibarlı müdafiə sistemi qurulmuş, xidmət üçün zəruri olan hər bir şərait yaradılmışdır. Postlar ərazinin strateji əhəmiyyəti nəzərə alınaraq yerləşdirilmiş, lazımi yerlərdə müxtəlif mühəndis-istehkam qurğuları və maneələr yaradılmış, ön xəttin müdafiə qüdrəti xeyli gücləndirilmişdir. Dayaq məntəqələri və postlar arasında yol və dayanıqlı rabitə əlaqələri yaradılmış, onların hər biri müasir döyüş texnikaları, artilleriya qurğuları və atıcı silahlarla təmin olunmuşdur. Müşahidə zonasının daimi nəzarətdə saxlanması təmin edilmişdir. Müasir müşahidə cihazları vasitəsi ilə qarşı tərəfin mövqeləri istənilən hava şəraitində müşahidə olunur.





Ardı 2-ci səhifədə

Maddi-texniki təminatla yanaşı, yüksək dağlıq şəraitində xidmət keçən şəxsi heyətin döyüş hazırlığına da diqqət yetirilir. Təmas boyunca etibarlı əməliyyat mövqeyinin təmin edilməsi, hərbi intizamın daim möhkəmləndirilməsi, şəxsi heyətin peşəkarlığının artırılması diqqətdə saxlanılır, əsgər və zabitlər xidməti vəzifələri şərəf və ləyaqətlə yerinə yetirirlər.

Ön xətdə yerləşən postlarda xidmət aparan əsgərlərlə görüşən Ali Məclisin Sədri demişdir: Nizam-intizama ciddi riayət olunması və şəxsi heyət arasındakı qarşılıqlı hörmət hərbi xidmətin əsasını təşkil edir. Dəniz səviyyəsindən 3 min metr yüksəklikdə yerləşən bu hərbi hissələrdə xidmətin normal təşkili üçün hər cür şərait yaradılmışdır. Bu da xidmət apardığınız ərazilərə yaxın yaşayış məntəqələrində insanların rahat və təhlükəsiz yaşamasına imkan verir.



"Torpağı, vətəni qorumaq müqəddəs vəzifədir", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, cəsur Azərbaycan əsgəri ön xətdə xidməti nümunəvi təşkil etməklə bu vəzifənin öhdəsindən layiqincə gəlir. Onlar istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdirlər. Bu da ölkəmizdə həyata keçirilən ordu quruculuğu siyasətinin daha bir ifadəsidir.

Ali Məclisin Sədri xidməti vəzifələrini layiqincə yerinə yetirdiklərinə görə şəxsi heyətə təşəkkürünü bildirmişdir.

Əsgərlərdən Hafiz Zeynallı, İbrahim Qocayev, Emin Məhərrəmli, Nurlan Xanbabalı və digərləri demişlər ki, bu gün torpaqlarımız etibarlı qorunur. Əsgərlərdə böyük ruh yüksəkliyi vardır. Buna səbəb müstəqil Azərbaycanın inkişafı, ordumuzun qüdrəti və ölkəmizdə xalq-ordu birliyinin möhkəm olmasıdır. Yüksək zirvələrdə, düşmənlə üzüzə təmas xəttində mətin və hər an ayıqsayıq dayanan Azərbaycan əsgəri dövlətin qayğısını daim öz üzərində hiss edir. Bugünkü görüş də əsgərləri ruhlandırır, onların əzm və iradəsini artırır. Əsgərlər hərbi xidmətin nümunəvi təşkili üçün yaradılan şəraitə və göstərilən qayğıya görə minnətdarlıq etmişlər.

Sonra Ali Məclisin Sədri əsgərlərlə xatirə şəkli çəkdirmişdir.

Ön xətdəki postlarda xidməti və yaşayış binaları müasir tələblərə uyğun qurulmuş, şəxsi heyət üçün normal şərait yaradılmışdır. Bu da xidmətin daha səmərəli təşkilinə imkan verir.

Gətirilmiş müxtəlif ərzaq məhsulları anbarlara təhvil verilmişdir.

## Batabat yaylaqlarından səmərəli istifadə olunur





Muxtar respublikada insanlar harada yaşamasından asılı olmayaraq dövlətin qayğısını öz üzərində hiss edir, qurub-yaradır, təsərrüfatla məşğul olurlar. Səfalı yaylaqlarda oba quran kənd adamlarının xoş güzəranı bunu bir daha təsdiq edir. Obalarda təsərrüfatla məşğul olan insanlar təkcə uca dağların deyil, həm də hərtərəfli dövlət qayğısının əhatəsində yaşayırlar. Onlarla mütəmadi görüşlərin keçirilməsi, yaylaqlarda səyyar tibbi və iaşə xidmətlərinin təşkili muxtar respublikada insan amilinə göstərilən diqqətin ifadəsidir.

İyulun 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Batabat yaylaqlarına gəlmiş, burada məskən salan oba sakinləri ilə görüşmüşdür.

Heyvandarlardan Mətləb Nəcəfov, Həsən İsmayılov, Elçin Əliyev və Abdulla İsayev oba sakinləri adından minnətdarlıq edərək demişlər ki, bir zamanlar yaylaqlarda məskunlaşmaq insanlarda qorxu hissi yaradırdı. İndi isə vəziyyət tamam başqadır. Bu gün sərhədlərin etibarlı qorunması insanlara arxayınlıq, bu yerlərə isə yeni həyat bəxş edib. Yay aylarında obalara köç edənlərin sayı hər ötən il daha da artır. Kənd adamları dövlətin verdiyi kreditlərdən istifadə edərək təsərrüfatlarını genişləndirir, öz gün-güzəranlarını yaxşılaşdırırlar. Digər tərəfdən burada sakinlər mütəmadi olaraq tibbi müayinədən keçirilir. Baytarlıq və səyyar ticarət xidməti də hər birimizdə razılıq doğurur. Yaylaq sakinləri üçün yaradılan bu şərait insanları daha əzmlə çalışmağa sövq edir. Hər kəs məhsul istehsalını artırmaqla kənd təsərrüfatının inkişafına öz töhfəsini verməyə çalışır.

Oba sakinlərini salamlayan Ali Məclisin Sədri demişdir: Ölkəmizdə kənd adamlarına, torpaq mülkiyyətçilərinə, heyvandarlıq və maldarlıqla məşğul olan sahibkarlara hərtərəfli qayğı göstərilir. Kənd adamlarının Batabat yaylaqlarından səmərəli istifadə etməsi, burada rahat və təhlükəsiz yaşaması üçün bütün şərait vardır. Çünki torpaqlarımız etibarlı müdafiə olunur. Eyni zamanda buradakı ailələrə qayğı göstərilir, onların sağlamlıqlarının qorunması, öz təsərrüfatlarını genişləndirmələri diqqət mərkəzində saxlanılır. Bütün bu tədbirlər kənd adamlarının yaşayış səviyyəsini yaxşılaşdırmaqla yanaşı, həm kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına, nəticədə isə ölkəmizin hərtərəfli inkişafına xidmət edir.

Ali Məclisin Sədri heyvandarlıqla məşğul olanlara bundan sonra da hərtərəfli qayğı göstəriləcəyini bildirmiş, onların ailə üzvlərinə və uşaqlara hədiyyələr təqdim etmiş, məişət şəraitləri ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, hazırda Batabat yaylaqlarında Şərur rayonunun Dizə, Babək rayonunun Cəhri, Gülşənabad, Şıxmahmud, Kəngərli rayonunun Çalxanqala, Xok və digər kəndlərindən olan 30-a yaxın ailə heyvandarlıqla məşğul olur. Ümumilikdə onların təsərrüfatında 10 mindən artıq xırdabuynuzlu heyvan və mindən artıq iribuynuzlu malqara saxlanılır. Oba sakinlərinə mütəmadi olaraq tibbi xidmət göstərilir. Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin əməkdaşları isə mütəmadi olaraq obalarda olur və yoluxucu xəstəliklərə qarşı tədbirlər görür, heyvandarlar arasında maarifləndirici söhbətlər edirlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Gömrükçülər birinci yarımili uğurla başa vurublar

***İyulun 30-da Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində kollegiya iclası keçirilmişdir. İclasda komitə sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov çıxış edərək cari ilin ilk 6 ayının yekunlarından və dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on birinci sessiyasında qarşıya qoyulmuş vəzifələrdən danışmışdır.***

Bildirilmişdir ki, 2015-ci ilin birinci yarımilində muxtar respublikanın sosial-iqtisadi inkişafına müvafiq olaraq gömrük işinin keyfiyyəti daha da artırılmış, maddi-texniki bazanın gücləndirilməsi istiqamətində müvafiq işlər görülmüşdür. Belə ki, ötən dövr ərzində "Naxçıvanterminalkompleks" Birliyi üçün inşa olunan yeni kompleksin tikintisi davam etdirilmiş, inzibati bina ilə yanaşı, beynəlxalq standartlara cavab verən anbarların yenidən qurulması işi yekunlaşdırılmışdır. Sədərək sərhəd gömrükburaxılış məntəqəsinin baş planına uyğun olaraq, ərazidə lazımi torpaqlama işləri görülmüş və yeni gömrük kompleksinin tikintisinə başlanılmışdır. Culfa sərhəd-keçid məntəqəsində minik avtomaşınları



və sərnişinlərin daha rahat keçidinin təmin olunması üçün bina inşa olunmuş, binada rentgen nəzarəti qurğusu quraşdırılmışdır.

2015-ci ilin 6 ayı ərzində muxtar respublikanın gömrük orqanları tərəfindən dövlət büdcəsinin formalaşdırılması məqsədilə müəyyən olunmuş illik proqnoz tapşırıq 82 faiz yerinə yetirilmişdir. Toplanmış vəsait Naxçıvan Muxtar Respublikasının büdcə gəlirlərinin 14,6 faizini təşkil etmişdir. Keçən ilin eyni dövrü ilə müqayisədə büdcəyə köçürülmüş ödənişlər 665 min manat çox olmuşdur.

Qanunvericiliyə əsasən, gömrük rüsumu və vergilərin bank, POS-terminal və ya internet üzərindən elektron qaydada ödənilməsi təmin edilmişdir.

Qeyd olunmuşdur ki, cari ilin birinci yarısında 33 xarici dövlətlə ticarət əməliyyatları aparılmış, muxtar respublikanın xarici ticarət dövriyyəsi 208 milyon 291 min ABŞ dolları olmuşdur. Muxtar respublikanın sosial-iqtisadi inkişafının məntiqi nəticəsi olaraq bu il də ixracın həcmi idxalı üstələmiş, xarici ticarət dövriyyəsinin 88 faizi ixrac, 12 faizi isə idxal əməliyyatlarının payına düşmüşdür. İdxal-ixrac əməliyyatları üzrə yaranmış müsbət saldo 160 milyon 550 min ABŞ dolları olmuşdur. 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə ixracın həcmi 5 faiz artmış, idxalın həcmi isə 140 faiz azalmışdır.

İxracın 79 faizini sənaye, 21 faizini kənd təsərrüfatı məhsulları, idxalın 31,8 faizini sənaye məhsulları, 31,6 faizini nəqliyyat vasitələri və onların hissələri, 0,8 faizini ərzaq məhsulları, 8,1 faizini tikinti materialları, 27,7 faizini isə digər mallar təşkil etmişdir.

Komitə sədri bildirmişdir ki, hesabat dövründə narkotik vasitələrin, psixotrop tərkibli dərmanların, pirotexniki vasitələrin, habelə milli-əxlaqi keyfiyyətlərimizə mənfi təsir göstərən elektron məlumat daşıyıcılarının, dini dəyərlərimizlə uzlaşmayan dini kitab və broşürlərin, odlu və soyuq silahların xaricdən qanunsuz yollarla muxtar respublikaya gətirilməsinin qarşısı alınmışdır.

Bəhs olunan dövrdə daxili bazarın qorunması istiqamətində də tədbirlər davam etdirilmişdir. Belə ki, idxal mallarının keyfiyyətinə ciddi nəzarət olunmuş, cari ilin ilk 6 ayı ərzində keyfiyyət göstəriciləri müvafiq tələblərə cavab vermədiyindən 72 min 766 kiloqram əmtəə geri qaytarılmış, 1832 kiloqram əmtəə isə müvafiq qaydada məhv edilmişdir.

Daxili bazarın qorunması istiqamətində tədbirlərin muxtar respublika iqtisadiyyatının inkişafındakı rolunu xüsusi vurğulayan komitə sədri qeyd etmişdir ki, dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on birinci sessiyasında Dövlət Gömrük Komitəsinə daxili bazarın qorunması məqsədilə kənd təsərrüfatı məhsullarının idxalının mövsümə uyğun tənzimlənməsinin davam etdirilməsi tapşırılmışdır. Asəf Məmmədov vurğulamışdır ki, "Kənd təsərrüfatı ili"ndə gömrük orqanları tərəfindən kənd təsərrüfatı məhsullarının xaricdən gətirilən eyniadlı malların təsirindən qorunması işi daim diqqətdə saxlanılmalı, yerli məhsulların daxili bazardakı payı nəzərə alınmaqla sonrakı dövrlərdə də bu iş davam etdirilməlidir.

Sonda mövzu ətrafında çıxışlar olmuşdur.

**Xəbərlər şöbəsi**

# Muxtar respublikanın nazirlik, komitə və təşkilatlarında cari ilin ilk 6 ayının yekunları müzakirə edilir



Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində keçirilən kollegiya iclasında nazir Elşad Əliyev bildirmişdir ki, muxtar respublikada aparılan meliorasiya, irriqasiya tədbirlərinin gücləndirilməsi, lizinq xidmətinin genişləndirilməsi, taxıl və soyuducu anbarların tutumunun artırılması, istixana komplekslərinin, quşçuluq və balıqçılıq təsərrüfatlarının, meyvə-tərəvəz emalı müəssisələrinin işə salınması kənd təsərrüfatının sürətli inkişafına əlverişli şərait yaratmışdır.

Qeyd olunmuşdur ki, məhsul istehsalçılarının marağının yüksəldilməsində Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət dəstəyi haqqında" 2007-ci il 23 yanvar tarixli Sərəncamına əsasən taxılın hər kiloqramının istehsalçılardan münasib qiymətə qəbul edilməsinin müstəsna əhəmiyyəti olmuşdur. Taxıl istehsalçılarına yanacaq və sürtgü yağlarına görə 2015-ci ilin yanvar ayında 1 milyon 206 min 640 manat verilmişdir. Mart ayında isə 4457 sahibkar 2 milyon 375 min 645 manat dəyərində 5939 tondan çox azot gübrəsi almışdır.

2015-ci ilin ilk 6 ayında banklar və bank olmayan kredit təşkilatları tərəfindən bitkiçiliyin, bağçılığın, heyvandarlığın, arıçılığın, quşçuluğun inkişaf etdirilməsi məqsədilə bu sahə ilə məşğul olanlara, ümumilikdə, 10 milyon 661 min 300 manat kredit verilmişdir.

Qeyd olunmuşdur ki, ümumilikdə, muxtar respublika üzrə 2015-ci ildə 26786 hektar sahədə yaz əkinləri həyata keçirilmişdir ki, bu da ötən illə müqayisədə 92 hektar artıqdır.

Keçən ilin payızında 30166 hektar sahədə, bu ilin yazında isə 6071 hektar sahədə taxıl əkini keçirilmişdir. 2015-ci ilin məhsulu üçün cəmi 36237 hektar sahədə taxıl yetişdirilmişdir. Ondan 26746 hektarı və ya 73,8 faizi buğda, 9491 hektarı və ya 26,2 faizi arpa əkini olmuşdur. Artıq muxtar respublikada taxıl biçini başa çatmışdır. Taxıl sahələrindən 106 min 282 ton məhsul yığılmışdır.

Ümumilikdə, 2015-ci ilin 6 ayında kənd təsərrüfatının ümumi məhsulu 110 milyon 870 min manat təşkil etmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 9,4 faiz artıqdır.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

*Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsində 2015-ci ilin birinci yarısının yekunlarına həsr olunmuş iclas keçirilmişdir.*

İclasda çıxış edən idarənin sədri Səbuhi Məmmədov bildirmişdir ki, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən 1 iyul 2015-ci il tarixədək muxtar respublika iqtisadiyyatına yönəldilən kredit qoyuluşu 119 milyon 789 min manat, o cümlədən qısamüddətli kredit qoyuluşu 15 milyon 132 min manat, uzunmüddətli kredit qoyuluşu isə 104 milyon 657 min manat təşkil etmişdir. Muxtar respublika əhalisinə verilmiş 13 milyon 265 min manat məbləğində şəxsi istehlak kreditləri, daşınmaz əmlak alınması üçün 8 milyon 18 min manat məbləğində verilmiş ipoteka kreditləri vasitəsilə vətəndaşların rifahının artırılması ilə bərabər, real sektor da dəstəklənmişdir. Bəhs olunan dövrdə bank və kredit təşkilatları tərəfindən 2015-ci ilin 6 ayı ərzində 41 milyon 355 min manat kredit verilmişdir ki, bunun da 11 milyon 113 min manatını qısamüddətli, 30 milyon 242 min manatını isə uzunmüddətli kreditlər təşkil etmişdir. Verilmiş kreditin 10 milyon 661 min manatı kənd təsərrüfatı, 10 milyon 378 min manatı sənaye, 407 min manatı tikinti, 3 milyon 700 min manatı kommersiya, 4 milyon 558 min manatı nəqliyyata, 4 milyon 684 min manatı daşınmaz əmlakla əlaqədar



ipoteka kreditlərinin verilməsinə, 6 milyon 967 min manatı digər fiziki şəxs olmaqla, 6511 müştəriyə yeni bank hesabı açılmışdır. Açılmış bank hesablarının 6511-i fəaliyyət göstərir ki, onların da analoji olaraq 41-i hüquqi, 6470-i isə fiziki şəxsdir.

Səbuhi Məmmədov demişdir ki, 1 iyul 2015-ci il tarixə əsas ödəniş alətlərindən sayılan POS-terminalların sayı 488-i Naxçıvan şəhəri, 509-u isə rayon və kənd yaşayış məntəqələrində olmaqla, 997 ədədə çatdırılmışdır. Hesabat yarımilində muxtar respublika sakinləri tərəfindən aparılmış nağdsız ödənişlərin 5 milyon 673 min manatı POS-terminallar üzərindən, 2 milyon 458 min manatı isə internet və digər ödəniş vasitələri üzərindən həyata keçirilmişdir. Aparılmış nağdsız əməliyyatların 2 milyon 400 min manatı isə kommunal ödəniş məntəqələrində quraşdırılmış 184 ədəd POS-terminalın payına düşmüşdür.

Vurğulanmışdır ki, 2015-ci ilin birinci yarısında 41 hüquqi, 6470 kommunal, sosial və istehlak kreditlərinin verilməsi kimi sahələrə yönəldilmişdir. Hesabat dövründə verilmiş kreditlərin 25,8 faizinin və ya 10 milyon 661 min manatının kənd təsərrüfatı kreditlərinin təşkil etdiyini deyən idarə sədri bildirmişdir ki, kənd təsərrüfatı kreditləri aqrar sahənin inkişafı, ənənəvi istehsal və kiçik emal sahələrinin dirçəlməsində əhəmiyyətli rol oynayır.

İdarənin sədri dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on birinci sessiyasında muxtar respublikada fəaliyyət göstərən bank qurumları qarşısına mühüm tapşırıqların qoyulduğunu diqqətə çatdırmış, görüləcək işlərdən bəhs etmişdir.

Sonra məruzə ətrafında çıxışlar dinlənilmişdir.

* * *



Muxtar respublikamızda keyfiyyət infrastrukturunun inkişaf etdirilməsi, əhalinin sağlamlığının qorunması, məhsul, iş və xidmətlərin təhlükəsizliyinin təmin edilməsi və keyfiyyətinin yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin qarşısında mühüm vəzifələr durur. 2015-ci ilin ilk altı ayında beynəlxalq norma və prinsiplərə müvafiq olaraq standartlaşdırma, metrologiya, sertifikatlaşdırma, akkreditasiya və sənaye mülkiyyəti obyektlərinin mühafizəsi sahələrində təkmilləşmə, müasir beynəlxalq təcrübənin tətbiqi istiqamətində işlər davam etdirilib, komitə tərəfindən qanunvericiliklə müəyyən edilmiş hüquq və vəzifələrin həyata keçirilməsi istiqamətində müvafiq işlər görülüb.

Bu sözləri Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində keçirilən kollegiya iclasında komitənin sədri Bəxtiyar İsmayılov deyib.

Dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on birinci sessiyasından irəli gələn vəzifələr, bu ilin ilk yarımilinin yekunları haqda məruzə edən komitə sədri bildirib ki, ötən ilin müvafiq dövründə olduğu kimi, bu ilin ilk altı ayında da muxtar respublika rəhbərinin müvafiq fərman və sərəncamları ilə təsdiq edilmiş dövlət proqramlarının və komitənin fəaliyyət istiqamətləri üzrə verilmiş tapşırıqların icrası diqqətdə saxlanılıb.

Bəxtiyar İsmayılov komitə tərəfindən elektron xidmətlər göstərilməsi, qaz təsərrüfatı sahəsində aparılan işlər, istehlakçıların hüquqlarının qorunması, ticarət, ictimai iaşə, məişət və digər xidmət sahələrində norma və qaydalara əməl olunması istiqamətində həyata keçirilən tədbirlər haqda danışıb.

İstehlak bazarında məhsulların keyfiyyətinə, müvafiq standartlara uyğunluğuna nəzarətin əsas prinsipləri və mövcud göstəricilər, məktəbli, tələbə və müəllim geyim formalarının, eləcə də məktəbli ləvazimatlarının keyfiyyət göstəricilərinin müasir standartlara uyğunlaşdırılmasına nəzarət edilməsi işinə xüsusi diqqət yetirilməsinin zəruriliyini vurğulayan komitə sədri, təhsil, eləcə də məktəbəqədər təhsil müəssisələrinin yeməkxanalarına alınan ərzağın keyfiyyətinin müntəzəm olaraq nəzarətdə saxlanılması, səhiyyə müəssisələrinin yeməkxanalarındakı mövcud vəziyyətlə bağlı araşdırmalar aparılması, qaz sayğaclarının istismar müddətinin diqqətdə saxlanılması, sahibkarlıq subyektlərinə qanunsuz müdaxilələrin qarşısının alınması üçün sertifikasiya işinin sürətləndirilməsi və digər sahələr üzrə aparılan işlərdən də bəhs edib.

Sonra məruzə ətrafında çıxışlar olub. Çıxışlarda keyfiyyətsiz məhsulların aşkar olunması, keyfiyyətin idarə olunmasına dövlət nəzarəti, standartlaşdırma, metrologiya və patent, akkreditasiya, dövlət reyestri və kadastrı, maliyyə, kadrlarla iş, komitənin elmi-texniki kitabxanası üzrə bu ilin 6 ayında görülmüş işlər barədə göstəricilər açıqlanıb, qarşıda duran vəzifələr müəyyənləşdirilib.

*Cari ilin ilk 6 ayının yekunları Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyində də müzakirə edilib.*



İclasda çıxış edən agentliyin baş direktoru Hikmət Əsgərov bildirmişdir ki, agentlik öz işini 30 noyabr 2011-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə verilmiş tapşırıqların yerinə yetirilməsi istiqamətində qurmuşdur.

Qeyd olunmuşdur ki, cari ilin ilk 6 ayında Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi tərəfindən Şərur, Ordubad, Sədərək, Babək, Şahbuz Rayon İcra hakimiyyətləri ilə birlikdə "Sığorta fəaliyyəti, görülmüş işlər və qarşıda duran vəzifələrə dair" müşavirələr keçirilmişdir. Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta olunmayan sürücülərin icbari sığortaya cəlb olunması məqsədilə Dövlət Baş Sığorta Agentliyi və Dövlət Yol Polisi əməkdaşları reydlər aparmışlar.

Bütün bu tədbirlərin yekunu olaraq 2015-ci ilin ilk 6 ayında Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi üzrə hüquqi və fiziki şəxslərlə aparılan məqsədyönlü tədbirlər nəticəsində ötən ilin müvafiq dövrü ilə müqayisədə, ümumilikdə, sığorta tədiyələrinin toplanması həcmi 4,8 faiz, qeyri-həyat (ümumi) sığortası üzrə sığorta tədiyələrinin toplanması həcmi 4,4 faiz artmışdır. Muxtar respublikada 2014-cü ilin 6 ayı ilə müqayisədə 2015-ci ildə avtonəqliyyat vasitəsi sahibləri mülki məsuliyyətinin icbari sığortası üzrə bağlanılmış müqavilələrin sayı 716, daşınmaz əmlakın icbari sığortası üzrə bağlanılmış müqavilələrin sayı 227, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə bağlanılmış müqavilələrin sayı isə 23 ədəd artmışdır.

Hikmət Əsgərov Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında kənd təsərrüfatının əhəmiyyətindən bəhs edərək bildirmişdir ki, "Kənd təsərrüfatı ili" ilə əlaqədar həyata keçirilən tədbirlər arasında bitkiçilik və heyvandarlıq məhsullarının sığortasına da diqqət artırılmışdır. Bununla bağlı 21 iyul 2015-ci il tarixdə dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on birinci sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Kənd Təsərrüfatı Nazirliyi və Dövlət Baş Sığorta Agentliyinə kənd təsərrüfatında sığorta işinin təşkilinə diqqətin artırılması, sığorta hadisələri barədə onların maarifləndirilməsi tapşırığını vermişdir.

İclasda ötən dövrdə işdə yol verilmiş nöqsanlardan da bəhs olunmuş, çatışmazlıqların tezliklə aradan qaldırılmasının vacibliyi vurğulanmışdır.

* * *

*"Naxçıvanqaz" İstehsalat Birliyində 2015-ci ilin 6 ayının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirilib.*

Müşavirədə birliyin direktoru Ramin İsmayılov geniş məruzə ilə çıxış edib. Bildirib ki, muxtar respublikada 1 iyul 2015-ci il tarixə təbii qaz istehlakçılarının ümumi sayı 84702, o cümlədən 82844 əhali abonentləri və 1858 qeyri-əhali abonentləri olub.

Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında yaşayış məntəqələrinin və istehsalat sahələrinin təbii qazla təminatını həyata keçirmək üçün birlik tərəfindən mütəmadi olaraq təbii qaz təchizatının etibarlılığının və səmərəliliyinin artırılması istiqamətində ardıcıl tədbirlər görülüb. Cari ildə 625 abonent, o cümlədən 521 əhali abonent və 104 qeyri-əhali abonent tərəfindən daxil olan müraciətlərə əsasən, ev, mənzil və müxtəlif təyinatlı obyektlər qazlaşdırılıb. Birinci yarımildə istismara yararsız 5657 ədəd qaz sayğacı yenisi ilə əvəz edilib.

Diqqətə çatdırılıb ki, bu gün muxtar respublikada istehlakçıların təbii qazla fasiləsiz təmin edilməsi ilə yanaşı, bu sahədə infrastrukturun təkmilləşdirilməsi məsələləri də diqqət mərkəzində saxlanılır. Cari ilin I yarımilində 95254 p/m, o cümlədən 23312 p/m polietilen boru və 71942 p/m dəmir borudan istifadə olunub.



Bəhs olunan dövrdə birliyə tabe şəhər, rayon Qaz İstismarı idarələrinin qəza dispetçer xidmətlərinə təbii qaz istehlakçılarından 10516 dəfə çağırış daxil olub. Bu çağırışlara vaxtında gedilib və bütün işlər keyfiyyətlə yerinə yetirilməklə qazın nəqli bərpa olunub.

Muxtar respublika qaz şəbəkəsində qazın təzyiqinin texnoloji rejimə uyğun istismarını təmin etmək üçün 308 ədəd müxtəlif markalı manometr, sayğac, ventil, siyirtmə və qaztənzimləyicilər quraşdırılıb, bəhs olunan dövrdə muxtar respublika qaz təsərrüfatı şəbəkəsində qaz analizator və detektorlar vasitəsilə 15009 halda sızma aşkarlanıb və bu sızmalar aradan qaldırılıb.

Əhali qrupu üzrə təbii qaz istehlakçılarının mavi yanacaqdan istifadəsində müasir standartlara cavab verən texnologiyaların tətbiqi məqsədilə Naxçıvan şəhərində ön ödənişli smartkarttipli qaz sayğaclarının quraşdırılmasına başlanılıb. Hələlik, sifariş əsasında Türkiyə istehsalı olan 10 min ədəd sayğac gətirilib. "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Mərkəzi Poçtda ödəmə məntəqəsi yaradılıb. Sayğac quraşdırılan abonentlərin sayı çoxaldıqca ödəmə məntəqələrinin də sayı artırılacaqdır.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

## Heydər Əliyev adına Hərbi Liseyə və Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Məktəbinin feldşer ixtisasına qəbul imtahanı keçirilib



İyul ayının 30-da Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyası Heydər Əliyev adına Hərbi Liseyə və Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Məktəbinin feldşer ixtisasına qəbul imtahanı keçirib. İmtahanda iştirak etmək üçün 616 nəfər qeydiyyatdan keçib.

Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə keçirilən imtahan saat 11[00]-də başlanıb və 2 saat davam edib. Abituriyentlərə 4 fəndən (Azərbaycan dili, riyaziyyat, fizika və kimya) 20 sual olmaqla, ümumilikdə, 80 test tapşırığı təqdim edilib. İmtahana 4 imtahan rəhbəri və 57 nəzarətçi müəllim cəlb olunub.

Abituriyentlərin bilik və bacarıqlarını üzə çıxarmaq üçün ayrılan 2 saat ərzində imtahan otağında yüksək fəallıq müşahidə edilib, heç bir qayda pozuntusu qeydə alınmayıb.

**Xəbərlər şöbəsi**

## Tibb işçilərinin sertifikasiya imtahanları davam etdirilir

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi praktik tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin peşəkarlıq səviyyəsini yoxlamaq məqsədilə sertifikasiya imtahanlarını davam etdirir. Bu işə 2011-ci ilin sentyabr ayından başlanmış və təkcə ötən yarımildə 38 həkim, 266 orta tibb işçisi növbəti beş il üçün sertifikat almışdır.***

Müxtəlif ixtisaslar üzrə keçirilən imtahanlarda terapiya, mamalıq-ginekologiya, ümumi cərrahiyyə, pediatriya ixtisas sahibləri üstünlük təşkil edirlər.

Sertifikasiya imtahanının növbəti müsahibə mərhələsində Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası ilə yanaşı, Yoluxucu Xəstəliklərlə Mübarizə Mərkəzinin, Ordubad rayonunun Dəstə kənd həkim ambulatoriyasının və Naxçıvan şəhərinin Qaraxanbəyli kənd feldşer-mama məntəqəsinin tibb bacıları öz biliklərini sınamışlar.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində keçirilən müsahibə turunda tibb bacılarına öz ixtisaslarına aid nəzəri, habelə onların bilik səviyyəsini və peşə vərdişini müəyyən edən praktik suallar verilmişdir.

Müsahibələr açıq, hər bir orta tibb işçisi ilə fərdi qaydada 30 dəqiqə müddətində aparılmışdır. Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsi əməkdaşının iştirakı ilə keçirilən müsahibənin şəffaflığı təmin edilmişdir.

Müsahibədən sonra imtahan komissiyasının üzvləri verilmiş cavabları müzakirə edərək ümumi rəy əsasında nəticələri elan etmişlər. İmtahanda iştirak etmiş 77 nəfərdən 69-u sertifikasiya imtahanını uğurla başa vurmuş, 8 nəfər isə zəruri həddi keçə bilməmişdir. Zəruri həddi keçə bilməyənlər 6 ay ərzində təkmilləşdirmə kursu keçərək yenidən öz bilik və bacarıqlarını sınamalı olacaqlar.

Xatırladaq ki, tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq, bütün səhiyyə müəssisələrində çalışan, praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan, ali və orta ixtisas təhsilli, müvafiq qaydada dövri ixtisasartırma kurslarını keçmiş səhiyyə mütəxəssisləri beş ildə bir dəfə sertifikasiyaya cəlb edilirlər. Sertifikasiya imtahanları Səhiyyə Nazirliyinin Sertifikasiya Komissiyası tərəfindən keçirilir. İmtahandan keçənlər müsahibə mərhələsinə buraxılırlar.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Uşaqlara milli rəqslərimiz öyrədilir



Qobustan və Gəmiqaya qayaüstü rəsmlərində əksini tapmış milli rəqslərimiz 1930-cu illərdə nota salındıqdan sonra bu sənət daha da geniş inkişaf etməyə başladı. Dahi bəstəkar Üzeyir Hacıbəyov tərəfindən 1938-ci ildə yaradılmış Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı bu sənətin inkişafına böyük təkan verdi. 1958-ci ildə Naxçıvan Dövlət "Araz" Mahnı və Rəqs Ansamblının və onun bazasında 1983-cü ildə Naxçıvan Dövlət Filarmoniyasının yaradılması muxtar respublikamızda da rəqs sənətinin inkişafında mühüm rol oynadı.

Zəngin milli elementlərə malik olan rəqslərimiz vasitəsilə hər kəs öz daxilində mənini tapır, xalqına məxsus olan milli dəyərləri dərk edə bilir. Çünki Azərbaycan xalq rəqsləri tariximizlə ayrılmaz surətdə bağlı olub, milli xüsusiyyətlərimizi, həyat və məişətimizi özündə əks etdirir. Bu da ölkənin tarixində, mədəniyyətində rəqs sənətinin nə dərəcədə böyük əhəmiyyətə malik olduğunu göstərir.

Tariximizi və mədəniyyətimizi dünyaya tanıtmaqda mühüm rol oynayan Azərbaycan milli rəqsləri bu gün də öz əhəmiyyətini qoruyub saxlamaqdadır.

Günümüzdə gənc nəslin xalq rəqslərinə olan yüksək marağı müşahidə edilməkdədir. Son zamanlar Naxçıvan şəhərində fəaliyyətə başlayan rəqs kurslarının bu sahədəki işini xüsusi vurğulamaq istərdik. 2014-cü ilin may ayından fəaliyyətə başlamasına baxmayaraq, qısa bir zaman kəsiyində kurslara güclü axın yaranmışdır.

Məşqlər zamanı qızlar qrupunda qadın rəqslərinə məxsus olan dövrəboyu sürətlə gediş, süzmək və sürətlə gəziş hərəkətləri, eyni zamanda qadın rəqslərinin əsasını təşkil edən qolların, çiyinlərin, başın və üzün hərəkətləri bütün incəlikləri ilə tədris olunur. Bunlarla yanaşı, oğlanlar qrupunda kişi rəqslərinin əsasını təşkil edən ayaqların hərəkət texnikası da yüksək səviyyədə kursun üzvlərinə öyrədilir.

Milli rəqslərimizin bir çox növlərinin bu kurslarda yeni nəslin bütün yaş qruplarından olan nümayəndələrinə həvəslə öyrədilməsi və sevdirilməsi təqdirəlayiq bir iş kimi qiymətləndirilməlidir. Hazırda rəqs kurslarında 70-ə yaxın uşaq iştirak edir.

**Leyla SƏFƏROVA**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı***

## Maarifləndirici tədbir

*Babək Rayon Prokurorluğunun təşkilatçılığı ilə rayonun Qoşadizə kəndində elektrik enerjisindən və təbii qazdan düzgün istifadə qaydalarına, həmçinin ətraf mühitin qorunmasına həsr olunmuş maarifləndirici tədbir keçirilib.*

Tədbirdə rayon prokurorunun müavini, kiçik ədliyyə müşaviri Kənan Seyidov "Təbii qazın, suyun, elektrik və ya istilik enerjisinin talanmasına görə cinayət və inzibati məsuliyyət" mövzusunda məruzə ilə çıxış edib. Qeyd olunub ki, dövlət qayğısı nəticəsində muxtar respublikamızda əhali fasiləsiz elektrik enerjisi və təbii qazla tam təmin olunub. Qarşıda duran başlıca vəzifə enerji resurslarından səmərəli istifadə olunmasından ibarətdir. Ona görə də hər bir idarə, müəssisə və təşkilat, eləcə də hər bir vətəndaş elektrik enerjisindən və təbii qazdan səmərəli istifadə etməli, israfçılığa, qanunsuz istifadə hallarına qətiyyən yol verməməlidir.

Elektrik enerjisindən və təbii qazdan qanunsuz istifadə halları ilə əlaqədar Cinayət Məcəlləsindəki maddələr barədə sakinlərə ətraflı məlumat verilib.

Sonra rayon prokurorunun böyük köməkçisi, II dərəcəli hüquqşünas Bayram Sadıxov "Ətraf mühitin qorunması sağlam həyatımızın başlıca amillərindəndir" mövzusunda çıxış edərək bildirib ki, ölkəmizdə son illərdə ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadəyə dair bir sıra normativ-hüquqi aktlar qəbul edilib, təbiətin qorunması sahəsində mühüm addımlar atılıb. Ətraf mühitə ziyan vurulması nəticəsində bitki örtüyünün, heyvanların, su obyektlərinin, bioloji sərvətlərin məhv olması, atmosferin çirklənməsi və sair hallar baş verir. Odur ki, ətraf mühitin qorunması günümüzün vacib məsələlərindən biridir və bu iş hər kəsin vətəndaşlıq borcudur.

Qeyd olunub ki, təbii sərvətlərdən istifadə sahəsində inzibati məsuliyyət Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsindəki "Ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətalar" fəslində, təbii sərvətlərdən istifadə sahəsində cinayət məsuliyyəti isə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 28-ci fəslində öz əksini tapıb.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Hafizə ƏLİYEVA**

### Həkim məsləhəti

## Düzgün qidalanma sağlamlığın başlıca şərtidir

***İnsan üçün bu dünyada həyatdan şirin, yaşamaqdan gözəl, əziz heç nə yoxdur və ola da bilməz. Uzun ömür yaşamağın, həm də ağrısız-acısız bir ömür sürməyin başlıca şərti isə cansağlığıdır. Bu haqda dünyanın məşhur adamları, filosofları da maraqlı fikirlər söyləyiblər. Qədim yunan filosofu Platon sağlamlığı insan üçün ən böyük xoşbəxtlik kimi qiymətləndirib, sağlam həyat tərzi olmadan mənəvi gözəllik, həqiqi xoşbəxtlik ola bilməz deyib.***

Təbabətin atası hesab olunan Hippokrat isə insanın gözəl, cazibədar, dolğun fizionomiyaya malik olmasını sağlam bədənlə əlaqələndirib. Böyük təbib bunun eyni zamanda hər kəsin özündən də asılı olduğunu bildirib. Böyük Azərbaycan maarifçisi Həsən bəy Zərdabi insan üçün sağlamlığı belə qiymətləndirib: Hər kəs xoşbəxt olmaq istəyirsə, həmişə gərək salamat olmağa çalışsın. Çünki xoşbəxtlik mal-dövlət ilə deyil, bədənin sağlamlığı ilədir. Həzm etməyən mədəyə, yara düşən ciyərə mal-dövlətdən nə fayda?

Bəs hamımızın arzuladığımız sağlamlıq özü nədir, onun şərtləri hansılardır? Nə etmək lazımdır ki, sağlam olasan, həm də ağrısız-acısız bir ömür yaşayasan? Ümumdünya Səhiyyə Təşkilatının ekspertləri sağlamlığı belə qiymətləndirirlər: Sağlamlıq xəstəliyin, yaxud qüsurun olmaması deyil, eyni zamanda tam fiziki, ruhi və ictimai rahatlıqdır. Bu mötəbər təşkilatın ekspertləri sağlamlığın səhiyyə sisteminin səviyyəsindən 12 faiz, irsi genetik faktorlardan 18 faiz, ekologiyadan 20 faiz, sağlam həyat keçirməkdən 50 faiz asılı olduğunu da qeyd edirlər. Bu məlumatdan da göründüyü kimi, sağlamlıq daha çox insanın keçirdiyi həyat tərzindən asılıdır.

Sağlam həyat tərzinin şərtlərindən biri də düzgün, səmərəli qidalanmadır. Hər bir insanın yaşaması və fəaliyyət göstərməsi üçün hər gün müəyyən miqdarda enerji lazımdır. Heç bir iş görmədikdə, hətta yuxuda olduqda belə, orqanizmin fəaliyyəti üçün enerji sərf olunur. Bu enerjini biz qəbul etdiyimiz və tərkibi zülallar, karbohidratlar, yağlar, vitamin və minerallardan ibarət olan qida vasitəsi ilə alırıq. Bu qidaların orqanizmdə mənimsənilməsilə enerji əmələ gəlir ki, bu enerji də bizim hər birimizin gün ərzində gördüyü müxtəlif işlərə sərf olunur. Deməli, insanın yaşaması üçün qidalanması vacib şərtlərdən biridir.

Bəs qida qəbulu, daha dəqiqi, səmərəli qidalanma necə olmalıdır ki, bizim qəbul etdiyimiz qidaların istər keyfiyyəti, istərsə də miqdarı orqanizmimizə mənfi təsir göstərməsin, əksinə, bizim sağlam yaşamağımıza səbəb olsun? Səmərəli qidalanmanın üç prinsipi var ki, bunlara hər bir insan əməl etməlidir. Bunlardan birincisi insan orqanizmi üçün vacib olan bütün qidalardan istifadə etməkdir. Elə bir qida məhsulu yoxdur ki, insan üçün onun tərkibində yuxarıda qeyd etdiyimiz faydalı olan karbohidratlar, zülallar, yağlar, vitaminlər və minerallar olmasın. Elə qida maddələri var ki, onların tərkibində zülallar daha çoxdur. Bəzilərinin tərkibində isə karbohidratlar və yağlar çoxdur. Meyvə və tərəvəzlər isə vitamin və minerallarla zəngindir. Ancaq tərkibində insan orqanizmi üçün lazım olan müxtəlif ərzaq məhsullarından istifadə etməklə bədəndə bütün orqanların normal işini təmin etmək mümkündür. Çox yeyənlər deyil, ən vacib qidanı qəbul edənlər sağlam ola bilərlər.

Səmərəli qidalanmanın ikinci şərti qidalanmada müəyyən həddin gözlənilməsidir. Lazım olduğundan çox yemək mədə-bağırsaq sistemi üçün problemlər yaradır. Bu vərdiş halını alarsa, insanda bədən çəkisinin artması, kökəlmə əmələ gələ bilər.

Bir məsələni də qeyd etmək yerinə düşər ki, əgər bədən çəkisi normal bədən çəkisindən 15 faiz artıq olursa, bu, artıq piylənmə hesab edilir. Artıq çəki insan ömrünü 7-8 il azaldır. Onsuz da qısa olan insan ömründə bu 7-8 il az müddət deyil. Yemək yeyərkən həddən artıq toxluq hissinin yaranmasına yol verməmək məsləhət görülmür. Əgər artıq qəbul etdiyiniz iki tikədən sonra doyduğunuzu hiss edirsinizsə, yaxşı olar ki, üçüncü tikəni qəbul etməyəsiniz:

*Xəstəlik törədən amilləri sən*
*Çalış ki, bədəndən kənar edəsən.*
*Uzaq ol dərmandan, acmamış yemə,*
*Doymamış əlini götür süfrədən.*

Səmərəli qidalanmanın üçüncü şərti vaxtlı-vaxtında qidalanmaqdır. Əgər imkan varsa, çalışmaq lazımdır ki, yemək üçün həmişə eyni vaxtda yemək masasının arxasına keçəsən. İnsan, ümumiyyətlə, ən azı gündə üç dəfə qidalanmalıdır. Uşaqların, yeniyetmələrin orqanizmi güclü inkişaf etdiyindən onların sutka ərzində 4-5 dəfə qidalanması təbii ola bilər. Onu da qeyd edək ki, insanların vaxtlı-vaxtında qidalanmasında bəzi hallarda çətinliklər ola bilər. Məsələn, ezamiyyət, ictimai işlər bəzən qidalanma rejiminin pozulmasına gətirib çıxarır. Belə hallarda insan özü ilə götürdüyü ehtiyat qidadan istifadə edə bilər.

Sözümüzü yekunlaşdırıb onu demək istəyirik ki, hamımız sağlam olmağı arzulayırıq. Bu arzunu reallaşdırmaq üçün düzgün qidalanmanın böyük əhəmiyyəti vardır. Bu isə özümüzdən asılıdır.

**Məmmədəli ƏLƏKBƏROV**
***Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinin həkimi***


ŞƏRQ qapısı

Baş redaktor əvəzi:
MUXTAR MƏMMƏDOV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 580